Ədəbiyyat qəzeti



5 dekabr / 2020

*Ömrünün yetmişinci ilini yaşayan Xalq yazıçısı, Əməkdar elm xadimi, "Şöhrət" ordenli akademik Kamal Abdulla Azərbaycan ədəbi elmi ictimaiyyətində yaxşı tanınan yazıçı, alim və ictimai xadimdir. O, bütün həyat və yaradıcılq fəaliyyətində yeni ədəbi-bədii və elmi-filoloji düşüncələrdə, mədəni ictimai istiqamətlərdə uğurlar qazanmış potensial Azərbaycan ziyalısıdır. Kamal Abdulla ölkəmizdə təhsil və elmi tədqiqatlar sahəsində monoqrafik araşdırmaları ilə yanaşı, bacarıqlı təşkilatçılıq nümunəsi göstərən şəxsiyyətdir. Onun həm elmi, həm də bədii əsərlərində yeni yanaşmalar və yeni ruh vardır.*

*Xalq yazıçısı Kamal Abdulla Azərbaycan xalqının ədəbi-mədəni ənənələrindən məharətlə istifadə edərək müasir dövrün tələblərinə uyğun dərin məzmunlu əsərlər yaratmış, bu əsərlər bir çox dünya xaqlarının dillərinə çevrilmiş və yayılmışdır. Akademik Kamal Abdulla multikulturalizmlə bağlı dövlət siyasətinin həyata keçirilməsində birbaşa iştirak edən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayədarlar Şrasının sədri kimi bu yöndə fəaliyyətini davam etdirən ictimai xadimdir. O, bütün etnik və dini icmaların işinə qayğı ilə yanaşır, faydalı məsləhət və təkliflərini verir.*

*Tarixi qələbə günlərini yaşayan doğma Azərbaycanımızda möhtərəm Kamal müəllimə cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.*

*Hörmətli Kamal müəllim, BBMM ətrafında birləşən icmalar həmişə sizin yanınızdadır.*

*Talış icması adından,*

*prof.* ***İmamverdi HƏMİDOV***